**Azərbaycan Respublikasının BMT yanında Daimi Nümayəndəliyi**

**Permanent Mission of the Republic of Azerbaijan to the United Nations**

**633 Third Avenue, Suite 3210, New York, NY, 10017**
**Tel: (212) 371-2559, 371-2832 (ext. 101); Fax: (212) 371-2784, (646) 738-6143**

## Press-reliz

## Azərbaycan Respublikası və Tanzaniya Birləşmiş Respublikası arasında diplomatik əlaqələrin yaradılması

***7 fevral 2019-cu il***

2019-cu ilin 7 fevral tarixində Nyu York şəhərində Azərbaycan Respublikası və Tanzaniya Birləşmiş Respublikası arasında diplomatik əlaqələrin yaradılması haqqında Birgə Kommünike imzalanmışdır.

Birgə Kommünikedə tərəflər ölkələri və xalqları arasında qarşılıqlı anlaşmanı və əməkdaşlığı təşviq etmək niyyətində olduqlarını və BMT Nizamnaməsini və beynəlxalq hüququn hamılıqla qəbul olunmuş norma və prinsiplərini, xüsusilə də dövlətlərin suverenliyi və ərazi bütövlüyü və onların daxili işlərinə qarışmama prinsiplərini rəhbər tutduqlarını bəyan edirlər.

Birgə Kommünikeni iki ölkənin BMT yanında daimi nümayəndələri Yaşar Əliyev və Modest Conatan Mero tərəfindən imzalanmışdır.